# Hüseyn Arif haqqında maraqlı məlumatlar

Hüseyn Arif daha çox gülməli insan kimi tanınır. Çoxu bilmir ki, o, həm də olduqca həssas qəlbə malik olan və ömrünün xeyli hissəsini dərd-qəm içində keçirən birisi olub. Xüsusən, tək oğlu Arifin ölümü onun həyatını alt-üst edib. Bu hadisədən sonra o, oğlunun adını təxəllüs götürüb. Onacan Hüseyn Hüseynzadə kimi tanınırdı.

***

Xalq artisti Habil Əliyev danışır ki, oğlu rəhmətə gedəndə yasa getdim, mağarda üz-üzə gəldik, bilmədim, nə deyəm. Adamın bir oğlu var, o da dünyasını dəyişib, nə deyəsən, necə təsəlli verəsən? Deyir, Hüseyn Arif əllərimdən yapışdı və qəhərdən boğula-boğula dedi:
- Habil, indiyəcən sənə qulaq asanda ağlayırdım, bəs indi neyləyəcəm?

***

Hüseyn Arif gəncliyində məşhur aşıq Aşıq Mirzənin qızını sevib. Ancaq qovuşmayıblar. Hüseyn əsgərlikdə ikən Bənövşə ərə gedib. Sonralar şairə 16 yaşında bir qız göstəriblər, gözəl olduğundan şair ona vurulub. Evlənməyə razılığını alıblar. Qız onu oxudacağına söz verəndən sonra Hüseynlə ailə qurmağa razı olub. Ancaq bir çox sevgi şeirlərində "İlk və son məhəbbətim" deyə Bənövşəyə işarələr vurub.

***

SSRİ Xalq artisti Zeynəb Xanlarova ilk dəfə onun şeiri ilə efirə çıxıb. "Qonşu qız" mahnısıyla... Sözləri Hüseyn Arifin, musiqisi Ələkbər Tağıyevindir. Amma sonralar danıb bu faktı. Deyib, öz mahnımla çıxmışam. Halbuki o vaxt gənc bir qızın mahnısını heç vaxt efirə buraxmazdılar. Bu fakt televiziyanın "Qızıl fondu"nda da öz əksini tapıb.

***

Daha bir maraqlı fakt: Hüseyn Arifin zəngin kitabxanası olub. Orta məktəbi də çox güclü oxuyub. Onu yaxşı oxuduğu üçün üçdən beşə, beşdən yeddiyə keçiriblər.

***

Əslində, ədəbiyyat və sənət cameəsində "Qazaxşina" adlandırılan Qazax yerlibazlığı Səməd Vurğundan çox Hüseyn Arifin adı ilə bağlıdır. Bununla bağlı məşhur bir məsəl də var. Guya Hüseyn Arif gileylənirmiş: "Bilmirəm mənə niyə yerlibaz deyirlər. Mən ki, tovuzluları da çap edirəm!"